# İdman xəbərləri

## 6 futbolçumuz Azərbaycan yığmasında

17 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası təlim-məşq toplanışına başlayıb. Yığmamız oktyabrın 1-dən hazırlıqlarını Serbiyada gerçəkləşdirir. Millinin düşərgəsində “Qəbələ”nin 6 futbolçusu da yer alıb. Komandanın hazırlıqlarında qapıçı Elməddin Sultanov, müdafiəçilər Samir Qurbanov, Veysəl Rzayev, Cavidan Rəhimli, Xəyal Muradov və hücumçu Məhəmməd Məhərrəmov iştirak edir.

## U-19-dan 3-cü qələbə

AFFA-nın təşkilatçılığı ilə keçirilən aşağı yaş qrupları üzrə liqalarda növbəti matçlar baş tutub. “Qəbələ” Futbol Akademiyasının komandaları müvafiq liqalarda qüvvəsini sınayıb. U-19 Gənclər Liqasında “İnter”i 4:0 hesabı ilə məğlub etdikdən sonra səfərdə “Səbail”dən güclü olub - 1:0. Üç oyunda 9 xal toplayan komandamız yarışın lideridir.

**“Qəbələ”**

## Əvəzedicilər dövrəni itkisiz başa vurdu

Əvəzedicilərin çempionatında VII tura start verilib. I dövrənin son turunun ilk görüşü əvvəlində rəqibin müqavimətini qırmaqda çətinlik çəksə də, 35-ci dəqiqədə Elvin Həsənov, fasilədən əvvəl isə Hacıağa Hacılı qol sevinci yaşayıb. Komandamız üstünlüyünü artırmaq üçün çalışsa da, hesabı dəyişməyə müvəffəq olmayıb.



Beləliklə, “Qəbələ” mövsümün startında Qəbələdə baş tutub. Həmyerlilərimiz öz meydanında “Kəpəz”lə görüşüb. Mövsümün startında 6 qələbə qazanan “Qəbələ” seriyasını bu matçda da davam etdirib. Elmar Baxşıyevin yetirmələri qarşılaşmanın 7-ci dəfə qalib gələrək, I dövrəni xal itkisi ilə üzləşmədən başa vurub. Ümumilikdə isə qələbə seriyası 8-ə çatan “Qəbələ” turnir cədvəlinin 1-ci pilləsindəki mövqeyini daha da möhkəmləndib.

## Oyunçularımız yığmada komandamızın adını doğrultmuşlar

DÇ-2018-in seçmə mərhələsinin IX turuna start verilib. Azərbaycan milli komandası son ev oyununda Çexiya ilə qarşılaşıb. Yığmamızın 1:2 hesablı ilə uduzduğu qarşılaşmada “Qəbələ”nin iki futbolçusu iştirak edib. Cavid Hüseynov və Ruslan Qurbanov start heyətində meydana çıxıb. Onların hər ikisi matçın gedişində əvəzlənib. Hüseynov 79, Qurbanov 62 dəqiqə meydanda olub. Ruslan komandamızın vurduğu qolda penalti qazanmaqla pay sahibi olub.

Xatırladaq ki, bu matç Hüseynovun yığmada 52-ci, Qurbanovun 18-ci oyunudur.

# Meşə çiyələyi və onun faydaları

Meşə çiyələyi tərkibində olan dəmirin, E vitamininin, fol turşusunun və kalsiumun miqdarının çoxluğuna görə giləmeyvələrin içində birinci yerdə durur. Onun yarpaqlarında və kökündə çoxlu efir yağları və alkoloidlər var. Buna görə də sidikqovucu təsirə malikdir. Meşə çiyələyinin yarpaqlarının və kökünün dəmləməsi mədə və bağırsaqda olan yaraları sağaltmaq, öd kisəsindəki şişkinliyi aradan qaldırmaq qabiliyyətinə malkdir. Ağız boşluğunda olan xəstəliklərin, diş əti qanaxmalarının da qarşısını bu giləmeyvənin yarpaqlarının dəmləməsi ilə almaq olar.

Meşə çiyələyinin kökü insan orqanizmi üçün çox faydalıdır. Onun kökündə çoxlu mikroelementlər, şəkər, pektin, turşular, vitaminlər və efir yağları var.

Giləmeyvədən 15 gün müddətində gündə 300 qram yeyilərsə aşağıdakı xəstəliklərin sağalmasına səbəb olar:

- **atereskleroz**
- **nevrasteniya**
- **mədə yarası**
- **yuxusuzluq.**



Yarpaqlarının dəmləməsi soyuqdəymə zamanı xəstəliyin əlamətlərini aradan qaldırır.

Hər gün meşə çiyələyinin yarpaqları dəmlənib içilərsə arterial təzyiq aşağı düşür.

Meyvəsi ilə yarpaqlarının birgə dəmləməsi qan damarlarını genişləndirir və qanın yaxşı işləməsini təmin edir.

Gündə 200 qram meşə çiyələyi yemək insana güc, qüvvət gətirir.

Giləmeyvəsinin çayı maddələr mübadiləsini yaxşılaşdırır.

40 qram meşə giləmeyvəsi, 30 qram gigirtkən yarpağı, 30 qram qatırquyruğu, 40 qram bağayarpağı və 30 şam ağacının qabığı qarışdırılır. Bu qarışımdan 2 xörək qaşığı 200 ml suda qaynadılıb və 1 saat termosda saxlandıqdan sonra içilərsə böyrəkdə olan duz, qum və xırda daşlar tökülür. Dəmləməni gündə 3 dəfə, hər dəfə 1 stəkan içmək lazımdır.

## Bir daha ədəbi dil normaları haqqında

***Mətbuat Şurası Azərbaycan ədəbi dil normalarının pozulmasına görə böyük cərimələrin tətbiq olunmasını təklif edir.***

***APA-nın məlumatına görə, bunu "Azərbaycan ədəbi dilinin qorunmasında və inkişafında KİV-in rolu" mövzusunda keçirilən konfransda Mətbuat Şurasının sədri Əflatun Amaşov deyib.***

***Əflatun Amaşov bildirib ki, monitorinqlər zamanı durğu işarələrinin işlədilməsində daha çox problemlərin olduğu üzə çıxıb. Orfoqrafiya qaydalarının qorunması ilə bağlı media orqanlarının üzərinə daha böyük məsuliyyət düşdüyünü şuranın sədri diqqətə çatdırıb.***

## Milli kinoların nümayişi

Sentyabr ayının 15-dən Heydər Əliyev Mərkəzində ölkəmizin milli kinolarının nümayişinə başlanılmışdır.

İlk olaraq “Dolu” filmi nümayiş olunmuşdur. Oktyabr ayının 15-dək davam edəcək filmlər həftənin 3 günü—çərşənbə axşamı, cümə axşamı və cümə günləri saat $15^{00}$-da nümayiş etdirilir.

**“Qəbələ”**

## Hikmətli kəlamlar

İnsan öz zəifliyini etiraf etdikdə qüvvətli olur.

**Balzak.**

* * *

İnsan həyatı dəmirə bənzəyir.Əgər ondan başqa iş üçün istifadə edirsənsə parıldayır, istifadə etmirsənsə pas kəsir.

**Katon Starşiy.**

* * *

Ölümdən qorxan insan heç nəyə nail ola bilməz. Yalnız qorxmayana hər şey mənsubdur.

**L. Tolstoy.**

Əxlaqı tərbiyə edən ən nadir kitab - vicdandır. Onunla tez - tez məsləhətləşmək lazımdır.

**Paskal.**

* * *

Uşağlara qarşı mümkün qədər tələbkar olmaq, amma mümkün qədər də böyük hörmət qoymaq lazımdır. Tələb etməzdən əvvəl, öyrətmək lazımdır.

**O. Uayld.**

* * *

Yaxşılığı gizlətmək pisliyi gizlətməkdən daha üstündür.

**(Əbu Bəkir F.)**

## İTMİŞDİR

Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 31 mart 2007-ci il tarixdə **Nəbiyev Ariz İkram oğluna** verilmiş MH seriyalı 0000937 nömrəli (reyestr nömrəsi 406013001542-06301, qeydiyyat nömrəsi 190701254) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Abdullayev Hacağa Mahmud oğluna** verilmiş JN senriyalı 391 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan RespublikasıDaşınmaz Əmlakın Dövlət Reyestr Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini **Rzayev İlqar Kamil oğluna** 25 iyun 2008-ci il tarixdə verilmiş 406011000003-05101-093013 reyestr nömrəli, 406-1/2969 inventar nömrəli **daşınmaz əmlakın texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və aparatın kollektivi RİH-nin sabiq işçisi **Sədiyar Səfərəliyevə** oğlu

**SADİQİN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzeti redaksiyasının kollektivi **Sədiyar Səfərəliyevə** oğlu

**SADİQİN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56

Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Dizayner Rais Rəşidov

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1900